*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 22 avqust 2015-ci il | № 64 (1980) | Qiyməti 25 qəpik

*Ön xətdən reportaj*

# Vətən sənə güvənir, Azərbaycan əsgəri

***Mil düzündə mislibərabəri olmayan bir şənlik qurulub. El-oba bu şənliyin havasına yığışıb: Xanın səsi, Qarabağın şikəstəsi yağı düşmənin əsarətində qalan Vətən torpaqlarını titrədir.***




Hər tərəf qələbəlikdi. Biz də bayram əhval-ruhiyyəsi ilə o möhtəşəmliyə qoşuluruq. Oğuz elinin yaraqlanıb-yasaqlanan Koroğlu nəslinin cəngavərləri, Dədə Qorqudun torpaqsevər övladları meydana toplaşıb. Gənc əsgərlər Vətən qarşısında borclarını yerinə yetirməyə daim hazır olacaqlarına and içirlər. Şənlikdə təsiredici məqamlar çoxdur. Meydanda sərkərdəlik tariximizin müasir ordumuzla birliyini yaradan rejissor və aktyor heyəti alqışlarla qarşılanır. Əsgərin səsləndirdiyi "Ana Vətən çağırır!", "Biz qalib gələcəyik" kəlmələrindən qürurlanıram. Əlbəttə, onlar hərbi vərdişlərə tam yiyələndikdən sonra təcrübəli əsgər yoldaşlarının yanına - ön xəttə gedəcək və Vətənin keşiyində ayıq-sayıq dayanacaqlar. Artıq hər kəsin böyük maraqla izlədiyi gənc əsgərlərin təntənəli andiçmə mərasimi başa çatır.

Hərbi hissənin cavabdeh zabitinin müşayiəti ilə yurdumuzun müdafiəsində dayanan vətənpərvər hərbçilərimizlə görüşə yollanırıq. Görünür, bu il yay fəslinin çox isti keçməsi Mil düzünə, aran bölgəsinə təsirsiz ötüşməyib. Yol boyu yaşıllığa rast gəlinmir. Yenicə biçilmiş yoncalığın yerində də qupquru, sapsarı otlaq sahələri görürük. Biz hərbi hissənin ərazisinə daxil olanda şəxsi heyət yay rejim qaydalarına uyğun olaraq kölgəliyə çəkilmişdir. Zabit Şükür Həmidov şəxsi heyətin döyüş hazırlığının və mənəvi-psixoloji vəziyyətinin yüksək səviyyədə olduğunu diqqətimizə çatdırır. "Günü-gündən müasirləşən ordumuzun peşəkar kadr potensialı imkan verir ki, erməni təcavüzkarlarının işğalında olan torpaqlarımızı azad edək. Biz Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin döyüş əmrinə hər an hazırıq" - deyə zabit əminliklə bildirir.

Zabit Seymur Həbibullayev düşmənə tutarlı cavablar verən, onların sutka ərzində iri çaplı pulemyotlardan açdığı atəş mövqelərini cəsarətlə susduran hərbçilərin döyüş əzmindən danışır. "Əsgərlərimizin iti gözləri daim düşmən tərəfdə və barmaqları tətikdədir. Havaların isti keçməsinə baxmayaraq şəxsi heyət sayıqlığı itirmədən döyüş növbəsindədir. Onlar düşmən istiqamətindən yarana biləcək təhlükələri daim dəf etməyə hazırdırlar. Dəfələrlə hərbçilərimizin peşəkarlığı sayəsində erməni kəşfiyyat-diversiya qrupunun hücum cəhdlərinin qarşısı cəsarətlə alınıb və düşmən geri çəkilməyə məcbur edilib" - deyə S.Həbibullayev söhbətini bitirir.

Məqsədimiz ön xətdə Vətən torpağının keşiyini çəkən igid oğulların əhval-ruhiyyəsini öyrənmək, onların məişət şəraiti ilə yaxından tanış olmaq və şərəfli xidmətlərini işıqlandırmaqdır. Uzaqdan kəndin içərilərinə doğru uzanan yol ermənilər tərəfindən yandırılıb külə dönmüş otlaq sahələrinin yaxınlığından keçir. Öyrənirəm ki, hər il yay aylarında bu ərazilərdə ermənilər təbiətə divan tutur, otlaq sahələrini yandırıb külə döndərirlər.

Fariz Hüseynov zabit təcrübəsinə əsaslanaraq qeyd edir ki, bu gün ordu sıralarına daxil olan hər bir əsgər silahdan istifadə qaydalarını böyük həvəslə öyrənməyə çalışır. Onlar tez bir zamanda silah və texnikanın sirlərini mənimsəyir, döyüş və fiziki hazırlıq sahəsində yüksək nəticələr göstərirlər. Bu zaman daha cox sevinən də döyüş vərdişlərini əsgərlərə yorulmadan aşılayan komandirlər olur. Artıq döyüş mövqeyindəyik. Ön xətdə xidmət keçən qeyrətli Vətən oğulları ilə görüşüb onları dinləmək, maraqlı söhbətlərini qələmə almaqdan qürur duyuram. Burada doğma Azərbaycanımızın ərazi bütövlüyünü qoruyan hərbçilərimiz üçün yüksək məişət şəraiti yaradılıb. Əsgər yataqxanasındakı səliqə-səhman, təmizlik diqqətimi çəkir. Gənc döyüşçülərin asudə vaxtı səmərəli təşkil olunub. Düşmənlə təmas xəttində yaradılan bu şəraitdən ürəyim dağa dönür.

Müşahidə məntəqəsində döyüş növbəsi çəkən baş çavuş Vüqar Səlimov 7 ildir ki, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin sıralarında xidmət edir. O, əslən Lənkəran şəhərindəndir. Vüqarın amalı düşmən işğalında olan torpaqlarımızı azad etmək və köçkün ömrü yaşayan həmvətənlərimizin ata-baba yurduna dönməsidir. "Ön xətdə xidmət keçməyin nə qədər çətinlikləri olsa da, onları asanlıqla aradan qaldırmağa çalışırıq. Fikirləşəndə ki, öndə yağı düşmən torpağımıza göz dikib, arxada isə Vətənimiz bizə güvənir, onda daha da güclü olur və özümüzü səfərbər edirik. Biz Vətən üçün hər anın qədrini bilib, isti ya soyuq oldu fərqinə varmadan onu qorumağa borcluyuq" - deyə döyüşçü ən səmimi arzularını, fikirlərini bölüşür.

Döyüş növbəsində olan əsgər Kamil Rəsulov Ağdaş rayonundandır. O danışır ki, hələ gənc əsgər olduğu müddətdə mütləq ön xətdə xidmət edəcəyinə söz verib. Keçirilən təlim-məşqlərdə müvəffəqiyyət qazanaraq nümunəvi əsgər olub. Bu gün komandirlərin tapşırıq və əmrlərini layiqincə yerinə yetirir. Torpaqlarımızı erməni quldurlarından azad etməyə, Vətən uğrunda döyüşə hər an hazırdır.

Hava çox istidi. Ağacın budağında yarpaq belə tərpənmir. Vətən, torpaq andına sadiq oğullar isə çətin şəraitə baxmayaraq ayıq-sayıq döyüş növbəsindədirlər.

Əsgər Ramil Hüseynov isə Qazax rayonundan hərbi xidmətə çağırılıb. O, söhbətində bildirir ki, düşmənlə sərhəddə yerləşən doğma el-obası da gecəsi, gündüzü olmayan hərbçilərimizin fədakarlığı sayəsində mərdliklə qorunur. "Məqsədim Silahlı Qüvvələrimizin sıradan bir əsgəri olaraq, müqəddəs hərbi anda sadiq qalıb erməni silahlılarını torpaqlarımızdan qovmaq, xidmətimlə Vətənimə layiqli döyüşçü, elimə, obama başucalığı gətirən bir vətəndaş kimi geri dönməkdir", - deyir əsgər.

Bu dəfə isə əsgər Vətən Xasızadənin döyüş növbəsi apardığı mövqeyə gəlirik. Bu təcrübəli əsgər də döyüş yoldaşları ilə həmfikir olduğunu, ön xətdə Vətənə xidmət etməkdən fəxr hissi duyduğunu deyir.

Tabor komandiri zabit Rüstəm Bədəlov Gədəbəy, Qazax, Füzuli bölgələrində xidmət keçdiyini bildirərək şəxsi heyətin döyüş ruhunun yüksək olmasından qururla söhbət açır.

Başqa bir həmsöhbətim isə leytenant Ələkbər Ələkbərlidir. Erkən yaşlarından ən böyük arzusu əyninə hərbi forma geyinmək olub. Bu istəklə də o, əvvəlcə hərbi liseydə təhsil alıb, sonra isə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsilini davam etdirib. Bu gün gənc zabit ön xətdə Vətənimizi qoruyur. Şərəfli zabit peşəsinə - Vətəni qorumaq peşəsinə dərindən yiyələnən yüzlərlə Ələkbər kimi oğullar torpaqlarımızın müdafiəsindədir, ön xətdədir.

Yayın bürkülü, qızmar havası Vətən oğullarını qətiyyən narahat etmir. Əksinə, onlar təbiətin bu əlverişsiz şəraitinə uyğunlaşmaqla möhkəmləniblər, dözümlü və iradəli olublar. Çünki yaxşı bilirlər ki, Ana Vətən, xalqımız, dövlətimiz onların fədakarlığına güvənir.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

## Amerikalı ekspert Azərbaycan ərazisinin Ermənistan tərəfindən işğal edilməsi haqqında yazıb

Amerikada çıxan "IJ Review" jurnalında "The Jerusalem Post" və "The Baltimore Jewish Times" qəzetlərinin sabiq baş redaktoru Maayan Caffenin məqaləsi dərc edilib. Məqalədə ABŞ Administrasiyasına ünvanlanmış bir çağırış - ABŞ-ın Qafqazdakı müttəfiqi Azərbaycana Dağlıq Qarabağ münaqişəsinin həllində dəstək vermək çağırışı əks olunur. Müəllif yazır ki, ABŞ rəhbərliyi, o cümlədən Ağ Ev və Konqres ölkələrin ərazi bütövlüyü prinsipini dəstəkləyir və son bir il ərzində Ukraynada davam edən münaqişə ilə əlaqədar rəsmi Kiyevi bu cür dəstəklədiklərini bildiriblər. Müəllif qeyd edir ki, 2012-ci ildə ABŞ-ın dəstəyi ilə BMT Abxaziyada və Cənubi Osetiyada separatçıları tanımaqdan imtina edərək Gürcüstanın ərazi bütövlüyünü bir daha dəstəkləyib. Xanım Caffe vurğulayır ki, konqres postsovet məkanında separatçı münaqişələr barəsində ardıcıl siyasət yürütməlidir.

Müəllif daha sonra qeyd edir ki, Ermənistan Azərbaycan ərazilərinin 20 faizini işğal edib və bu torpaqlarda etnik təmizləmə aparıb. Ekspert 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması və 1920-ci ildə Azərbaycanın "Qırmızı Ordu" tərəfindən işğal edilməsi barədə məlumat verərək qeyd edir ki, 1991-ci il oktyabrın 18-də Azərbaycan öz dövlət müstəqilliyini bərpa edib. M.Caffe yazır ki, Amerika həmişə Azərbaycanın dostu olub. Azərbaycan Avropa ilə, ABŞ ilə tərəfdaşlığı davam etdirir, enerji resursları ilə təchizatın şaxələndirilməsi yolu ilə Avropanın enerji təhlükəsizliyinin təmin olunmasına töhfə verir.

Sonda M.Caffe yazır ki, Ermənistan-Azərbaycan münaqişəsi beynəlxalq hüquqa və BMT Təhlükəsizlik Şurasının qətnamələrinə müvafiq şəkildə həll edilməlidir.

**AZƏRTAC**

## Azərbaycanın ərazi bütövlüyü və təhlükəsizliyinin təmin olunması İran üçün çox əhəmiyyətli məsələdir

Azərbaycanın ərazi bütövlüyü və təhlükəsizliyinin təmin olunması İran üçün çox əhəmiyyətli məsələdir.

Bu sözləri İranın rabitə və informasiya texnologiyaları naziri, İran-Azərbaycan hökumətlərarası müştərək iqtisadi komissiyanın həmsədri Mahmud Vaezi deyib.

İran ilə Azərbaycan arasındakı əlaqələrin gələcəkdə də yüksək templə inkişaf edəcəyini bildirən nazir deyib: "Ümid edirəm ölkələrimiz arasında münasibətlər elə inkişaf edəcək ki, bu, digər qonşu dövlətlərə nümunə olacaq".

M.Vaezi qeyd edib ki, bu gün əlaqələrimiz ən yüksək səviyyədədir. Buna dövlətlərimizin başçılarının siyasi iradəsi səbəb olub. Azərbaycan və İran prezidentlərinin qarşılıqlı səfərləri zamanı əlaqələrin gələcək inkişafı üçün mühüm qərarlar qəbul olunub. Yalnız bu il ərzində müxtəlif rəsmilər və nazirlər 47 qarşılıqlı səfər ediblər. İran Azərbaycanı dost və qardaş ölkə hesab edir. İki dövləti birləşdirən ümumi cəhətlər çoxdur. Xalqlarımızı ümumi mədəniyyət və tarix birləşdirir.

M.Vaezi Azərbaycan iqtisadiyyat və sənaye nazirinin bu yaxınlarda İrana etdiyi səfərə də toxunub. Qeyd edib ki, tərəflər arasında məhsuldar müzakirələr keçirilib.

Nazir, həmçinin İran ilə Azərbaycan arasında mədəni əlaqələrin inkişafına da diqqət çəkərək deyib ki, humanitar sahədə də əməkdaşlığın inkişafı üçün əlverişli şərait mövcuddur.

**AZƏRTAC**

# Məqalədə siyasi, hüquqi, tarixi və dini əsasda saxtakarlığa yol verilib

***"Nezavisimaya Qazeta"da sifariş əsasında hazırlandığı aydın şəkildə görünən "Kolokolni i minaretı Karabaxa" sərlövhəli məqalədə siyasi, hüquqi, tarixi və dini əsasda saxtakarlığa yol verilib.***

Bu sözləri Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev Rusiyanın "Nezavisimaya Qazeta" nəşrində Anton Yevstratovun məqaləsinə münasibət bildirərkən deyib.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a məlumat verilib ki, Hikmət Hacıyev açıqlamasında bildirib: "Müəllif tərəfindən sifariş əsasında hazırlandığı aydın şəkildə görünən bu məqalədə siyasi, hüquqi, tarixi və dini əsasda saxtakarlığa yol verilib. Azərbaycan Respublikasının Ermənistan tərəfindən işğal olunmuş ərazilərində Ermənistan tərəfindən yaradılmış qondarma rejim vardır ki, bu da yalnız işğal və təcavüzün nəticəsidir. İşğal olunmuş ərazilərin əhalisinin 99,9 faizinin eyni dindən olan ermənilərin təşkil etdiyini yazan müəllif əslində yerli azərbaycanlı əhalinin etnik təmizləməyə məruz qaldığını bir daha təsdiq edir. Müəllifə xatırlatmaq istərdik ki, münaqişədən əvvəl - 1988-ci ildə Azərbaycan SSR Dağlıq Qarabağ Muxtar Vilayətinin əhalisinin 74 faizini ermənilər, 24 faizini azərbaycanlılar, 2 faizini isə ruslar və digər xalqlar təşkil edirdilər. İndi isə yalnız ermənilərdən ibarət monoetnik tərkibdir".

H.Hacıyev deyib: "Ermənilər Cənubi Qafqaz regionuna yad və gəlmə olduqları halda, erməni kilsəsinin Qarabağda və indiki Ermənistan ərazisindəki "tarixi" rolundan danışmaq cəfəngiyatdır. Gəncəsar monastırının adını təhrif edərək yazan müəllif çox vacib bir məqamın üstündən ötməyə çalışır. Gəncəsar monastırı sırf "erməni" monastırı kimi yaradılmışdısa, niyə bu məbədi tikdirmiş Həsən Cəlal tikilinin üstündə "mənim alban xalqım" üçün ucaldılmış "Albaniya paytaxt məbədi" yazdırmışdı? Eləcə də Qarabağın dağlıq hissəsinin xristian əhalisi rus çarı I Pyotra məktubunda özlərini alban adlandırmışdılar. Əsrlər boyu alban kilsəsi ilə mübarizə aparan erməni kilsəsi planlı şəkildə onu özünə tabe etməyə, sonralar isə ləğv etməyə çalışmışdır.

Alban yazılı mənbələri 1836-cı ildə rus Sinodunun qərarı ilə alban kilsəsi erməni kilsəsinə tabe edildən sonra məhv edilmişdir".

Bildirilib ki, ümumiyyətlə regionda erməni kilsəsinin rolundan danışan müəllifə elə Çar Rusiyasına qarşı terror siyasəti apardığına görə 1903-cü ildə erməni kilsəsinin əmlakının müsadirə olunması haqqında fərmanı xatırlatmaq yerinə düşər. Müəllif işğal edilmiş ərazilərdə Azərbaycan xalqının İslam dininə aid maddi-mədəni irsini də təhrif edir. Ermənistan ərazisində Azərbaycan xalqına məxsus Dəmirbulaq məscidi tamamilə məhv edilmişdir. Azərbaycanın İslam mədəniyyətinə və memarlığına verdiyi zəngin irsin bir hissəsi olan işğal edilmiş Ağdam rayonundakı Cümə və Şuşadakı Yuxarı Gövhər ağa məscidləri vandalizmə və təhqirlərə məruz qalmışdır.

Hikmət Hacıyev vurğulayıb ki, məqalədən göründüyü kimi, müəllif Azərbaycanın işğal olunmuş ərazilərinə qeyri-qanuni səfər edərək "Dövlət sərhədi haqqında" Qanunu pozub və ölkəmizin tarixinin sifarişli əsasla saxtalaşdırılması və qondarma rejimin təşviqi ilə məşğuldur. Müvafiq araşdırma aparıldıqdan sonra müəllifin adı arzuolunmaz şəxslər siyahısına daxil ediləcək.

**AZƏRTAC-ın materialları əsasında**

# Müdafiə naziri Küveyt səfiri ilə görüşüb



***Avqustun 21-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Küveytin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri cənab Səud Əbdüləziz Məhəmməd əl-Şəmlan əl-Rumi ilə görüşüb.***

Görüşdə regiondakı hərbi-siyasi vəziyyət, Azərbaycan Respublikası ilə Küveyt Silahlı Qüvvələri arasında hərbi əməkdaşlığın perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***20 avqust 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində 60 və 82 millimetrlik minaatanlar, iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 167 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Barekamavan, Dovex, İcevan rayonunun Paravakar kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Qaymaqlı, Kəmərli kəndlərində və adsız yüksəkliklərdə, Ağstafa rayonunun Köhnəqışlaq kəndində, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Koxanəbi kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə və Cil kəndində yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Tapqaraqoyunlu, Gülüstan, Tərtər rayonunun Çiləbürt, Göyarx, Qızıloba, Yarımca, Ağdam rayonunun Kəngərli, Yusifcanlı, Nəmirli, Novruzlu, Şuraabad, Qaraqaşlı, Mərzili, Füzuli rayonunun Qorqan, Aşağı Əbdürrəhmanlı, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub.

***21 avqust 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində 60 millimetrlik minaatanlar və iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 124 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Tapqaraqoyunlu, Gülüstan, Tərtər rayonunun Çiləbürt, Göyarx, Qızıloba, Çaylı, Ağdam rayonunun Kəngərli, Yusifcanlı, Şirvanlı, Novruzlu, Şuraabad, Qaraqaşlı, Mərzili, Cəvahirli, Şıxlar, Füzuli rayonunun Qorqan, Aşağı Əbdürrəhmanlı, Aşağı Seyidəhmədli, Aşağı Veysəlli, Qaraxanbəyli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub.

# Hərbi Hava Qüvvələri təlim-məşq uçuşları keçirir

***Azərbaycan Hərbi Hava Qüvvələrinin döyüş təyyarələri "TurAz Qartalı - 2015" birgə taktiki təlimlərinə hazırlıq məqsədilə planlı təlim-məşq uçuşları həyata keçirir.***

Hərbi Hava Qüvvələrinin uçuş, mühəndis-texniki heyəti, o cümlədən bort və yerüstü xidmətlərin mütəxəssislərinin iştirakı ilə keçirilən məşqlərdə aviasiya vasitələri şərti hava döyüşlərini imitasiya etməklə müxtəlif manevrlər və bir sıra xüsusi tapşırıqları yerinə yetirir, şəxsi heyətin təlim-döyüş təcrübəsi üzrə vərdiş və bacarıqlarını təkmilləşdirir.

Təlim-məşqlərdə pilotlar hərəkət edən və hərəkətsiz yerüstü hədəflərin, müxtəlif obyektlərin, şərti düşmənin zirehli texnikasının, helikopterinin, aşağı hündürlükdə və zəif sürətlə uçan hava aparatlarının aşkar edilməsi və tanınması tapşırıqlarını da icra edirlər.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# Müdafiə naziri qoşunların döyüşə hazırolma səviyyəsini yoxlayıb







***Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov cəbhəboyu zonada yerləşən birlik və birləşmələrin döyüşə hazırolma səviyyəsini yoxlayıb.***

Qəfil həyəcan siqnalı ilə qaldırılan qoşunların hərtərəfli döyüş hazırlığı, qarşıya qoyulan vəzifələri qısa müddətdə yerinə yetirmək üzrə bacarıqları və manevr imkanları yoxlanılmaqla praktiki döyüş atışları icra olunub.

Müdafiə naziri yoxlanılan hərbi hissələrin döyüş və əməliyyat imkanlarını, hərbi əməliyyatları aparmaq qabiliyyətini yüksək qiymətləndirib.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# Müdafiə naziri cəbhəboyu zonada yerləşən hərbi hissələrdə olub









***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərişinə əsasən, hərbi şəhərciklərin kompleks şəkildə tikilərək istifadəyə verilməsi istiqamətində işlər davam etdirilir.***

Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin rəhbər heyəti cəbhəboyu zonada tikilməkdə olan yeni hərbi şəhərciklərdə aparılan inşaat işlərinin gedişatını yoxlayıb.

Bütün cəbhəboyu ərazilərdə tikintiləri icra edən heyətlə görüşən Müdafiə naziri görülən işlərin keyfiyyətinə ciddi nəzarətin olunması, şəxsi heyət üçün nəzərdə tutulan tam infrastrukturla təmin ediləcək müasir tipli hərbi şəhərciklərdə inşaat işlərinin qısa müddətdə yekunlaşdırılması ilə bağlı müvafiq tapşırıq və tövsiyələrini verib.

Müdafiə naziri ön xətdə yerləşən hərbi hissələrdə xidmət edən şəxsi heyətlə görüşüb, onların döyüş hazırlığı, sosial-məişət şəraiti, mənəvi-psixoloji vəziyyəti, döyüş texnikalarının hazırlıq səviyyəsi, imkanları və tətbiqi ilə maraqlanıb, eləcə də hərbi qulluqçularla birlikdə nahar edib.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**



# Silahlı Qüvvələrin şəxsi heyətlə iş üzrə zabitlərinin xidməti müşavirəsi

***Bakı və Sumqayıt qarnizonlarında yerləşən hərbi hissələrin, qoşun növlərinin və xüsusi təyinatlı təhsil məssisələrinin şəxsi heyətlə iş üzrə zabitlərinin xidməti müşavirəsi keçirilib.***



Əvvəlcə müşavirə iştirakçıları xalqımızın ümummilli lideri Heydər Əliyevin hərbi şəhərcikdəki abidəsini ziyarət edərək qarşısına gül dəstələri qoyublar.

Müşavirəni Şəxsi Heyət Baş İdarəsi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi general-mayor Rasim Əliyev açaraq Silahlı Qüvvələrin şəxsi heyətinin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, hərbi intizamın möhkəmləndirilməsi ilə əlaqədar görülən işlər və şəxsi heyətlə iş üzrə zabitlərin qarşısında duran vəzifələr barədə danışıb.

Müşavirədə şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi sahəsində görülən işlər, hərbi intizamın təhlili və digər məsələlər barədə çıxışlar dinlənilib.

Yekunda general-mayor R.Əliyev zabitlərin suallarını cavablandırıb, onlara Müdafiə Nazirliyi rəhbərliyinin şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, hərbi intizamın möhkəmləndirilməsi sahəsində tapşırıq və tövsiyələrini çatdırıb.

Xidməti müşavirənin iştirakçıları şəxsi heyətlə birlikdə nahar ediblər.

Digər hərbi qarnizonlarda da xidməti müşavirələrin keçirilməsi planlaşdırılıb.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**





*Döyüş hazırlığı*

# Məqsədimiz əsgərləri əsl döyüşçü kimi yetişdirməkdir

***Əsaslı təmirdən çıxmış, müasir standartlara cavab verən "N" hərbi hissəsində sinif otaqlarını gəzərkən kapitan Şirxan İbrahimov şəxsi heyətə texniki hazırlıq dərsini tədris etmək üçün hazırlaşırdı.***

- Hərb sənəti çətindir, məsuliyyətlidir və bir o qədər də şərəflidir. Biz burada doğma Vətənimiz Azərbaycanı qoruyuruq. Bu gün yurdumuzun müdafiəsində dayansaq da, işğalda olan torpaqlarımızın tezliklə azad olunması üçün Ali Baş Komandanın əmrini yerinə yetirməyə can-başla hazırıq,- deyir kapitan.

Texniki hazırlıq dərsi başlayır. Şirxan İbrahimov şəxsi heyəti salamlayır. Dərsin döyüş sursatlarını, məşğələnin isə atışlara həsr edildiyini qeyd edir. Zabit mərmilər haqqında şəxsi heyətə məlumat verir, düşmənin canlı qüvvəsinə, atəş vasitələrinə, tanklarına və başqa zirehli hədəflərinə tələfat vermək, müdafiə qurğularını dağıtmaq üçün belə döyüş sursatından istifadə olunduğunu söyləyir.

Kapitan dərsi maraqla aparır, şəxsi heyəti maraqlandıran sualları cavablandırır. Dərs zamanı biz də təcrübəli zabitdən çox şey öyrəndik. Zabit bildirir ki, belə dərslər hər həftə keçirilir, hərbi qulluqçularımız biliklərini artırırlar. Burada öyrənilənləri təlimlər zamanı şəxsi heyət tərəfindən daha da təkmilləşdirilir. Məqsəd əsgərləri əsl döyüşçü kimi yetişdirməkdir. Çünki döyüş meydanında bacarıqlı əsgər komandirin güvənc yeridir. Hər bir komandir cəsur, bacarıqlı, vəzifəsinin öhdəsindən gələ bilən və qorxmaz əsgərlərlə döyüşə yollanmaq istəyir....



Söhbət zamanı Ş.İbrahimovun artıq 10 ildir ordu sıralarında zabit kimi xidmət etdiyini öyrənirik. Xidmətinin böyük bir hissəsini cəbhə bölgəsində keçirən kapitan Qarabağımızın işğalda inlədiyini, hər bir Vətən övladının bu yolda son damla qanına kimi vuruşa hazır olduğunu bildirir.

**Leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu"**

*Valideyn sözü*

# Vətənə başucalığı gətirmək hər oğlun borcudur

***Nəhayət, mənim də oğlum hərbi xidmətə çağırıldı. Bu günü, sözün əsl mənasında, ailəmizlə həsrətlə gözləyirdik. Oğul hərbi xidmətə çağırılırsa, bu, valideyn üçün böyük fərəhdir. Hər kəs vətəndaşlıq borcunu yerinə yetirməlidir. Hərbi xidmət bütün mənəvi borclardan müqəddəsliyi ilə daha çox fərqlənir.***



Mən oğluma həmişə deyərdim ki, oğul, mən sən yaşda olanda Vətən kəlməsi bu qədər gözəl, bu qədər əzəmətli deyildi. Onda Azərbaycanımız imperiyanın tərkibindəydi, azad, müstəqil deyildik. Xalqın tələbi ilə dövlət müstəqilliyimiz bərpa olundu. Dünya şöhrətli siyasi xadim olan Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı ilə digər sahələrdə olduğu kimi, ordu quruculuğunda da böyük dəyişikliklər oldu. Dahi rəhbərin həyata keçirdiyi tədbirlər nəticəsində Silahlı Qüvvələrimiz formalaşdı. Bu gün ordumuzun daha möhtəşəm gücə, qüdrətə malik olması üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev böyük işlər görür. Indi Silahlı Qüvvələrimiz Cənubi Qafqazda ən güclü ordudur. Sən belə bir ordunun əsgəri olacaqsan. Bununla fəxr etməli, bundan qürur duymalısan.

Bir ata kimi fəxr edirəm ki, oğlum əsgərdir. Bu günlərdə gənc əsgərlərin andiçmə mərasimində mən də iştirak etdim. Təntənəli tədbirdə mənə də söz verdilər. Bir vaxtlar oğluma dediklərimi ona və onun əsgər yoldaşlarına tribunadan təkrar dedim. Dedim ki, sevin Vətəni, Vətəni sevmək onun qanunlarına ciddi əməl etmək deməkdir. Indi sizin üçün əsas qanun hərbi nizamnamələrdir. Hərbi nizamnamələrin tələblərinə əməl edin, komandirlərinizin, zabitlərin əmr və göstərişlərini sözsüz, vicdanla yerinə yetirin. Onda biz valideynlərə başucalığı gətirərsiniz.

Oğul təkcə ata-anaya deyil, Vətənə başucalığı gətirməlidir. Inanıram ki, bu gün hərbi and içərək doğma ordumuzun sıralarına qoşulan gənclərimiz bu məsuliyyətli vəzifənin öhdəsindən bacarıqla gələcəklər.

Torpaqlarımız işğaldan azad edilməlidir. Ediləcək. Ali Baş Komandan əmr versə, əsgərlərimiz düşməni həsrətində olduğumuz torpaqlardan silah gücünə qovub çıxaracaq. Mənim oğlum da onların sırasında olacaq. Onda oğlumla daha böyük sevgilərlə fəxr edəcəm. O günə az qalıb...

**Əsgər atası**
**İlqar ƏFƏNDİYEV,**
**Şamaxı rayonu**

# Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyəti ilə ictimai-siyasi hazırlıq sistemində keçirilən dərs

**Mövzu:** Komandir döyüş təşkilatçısı və əsgərin tərbiyəçisidir. Komandirin əmri tabelikdə olan üçün qanundur.

*İctimai-siyasi hazırlıq qrupunun rəhbəri bu dərsə hazırlaşarkən Azərbaycan Respublikası Konstitusiyasının, hərbi qanunvericilik aktlarının, Hərbi Andın, Daxili Xidmət və İntizam nizamnamələrinin tələblərini, ümummilli lider Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin Silahlı Qüvvələrin qarşısında qoyduğu vəzifələri bir daha diqqətlə öyrənməli və öz bölməsinin tapşırıqlarını, xüsusiyyətlərini, xidmət şəraitini nəzərə alaraq mövzunu bölmənin gündəlik həyatı ilə əlaqələndirməlidir.*

**Suallar:**

**1. Komandir döyüş təşkilatçısı və əsgərin tərbiyəçisidir.**

**2. Komandirin əmri tabelikdə olan üçün qanundur.**

**3. Komandirin əmr və göstərişlərinə sözsüz, tez və vaxtında əməl etmək əsgərin borcudur.**

***Komandir döyüş təşkilatçısı və əsgərin tərbiyəçisidir***

Müasir şəraitdə bölmələrin, hissələrin, gəmilərin yüksək döyüş hazırlıqlı olmasına bütün təlim prosesinin, mənəvi-psixoloji hazırlığın bacarıqla, elmi cəhətdən əsaslandırılmış təşkili, möhkəm hərbi intizam, döyüş texnikası və silahların nümunəvi vəziyyətdə saxlanılması ilə nail olmaq olar.

Hər bir hərbi kollektivin başında vahid əmrvermə səlahiyyətinə və tabeliyində olanlara qarşı müvafiq hüquqlara malik şəxs - komandir dayanır. Komandir Azərbaycan xalqı və dövləti qarşısında ona tapşırılmış bölmənin (hissənin) daim döyüş hazırlıqlı olması üçün döyüş və ictimai-siyasi hazırlığa, tərbiyə işinin təşkilinə, hərbi intizam və mənəvi-psixoloji vəziyyətə, döyüş texnikası və silahların vəziyyətinə, maddi-texniki təminata görə şəxsi cavabdehlik daşıyır. Ümummilli lider Heydər Əliyevin **"... Gərək bizim hərbi hissələr və bu hissələrdə olan zabit, komandir heyəti o qədər yüksək səviyyəli olsun ki, bir il altı ay müddətində orduya səfərbər edilən hər bir azərbaycanlı gənci hərbi peşəyə alışdıra bilsin, onu öyrədə bilsin, gənclər hərbi peşəni sevsinlər və ordudan tərxis olunanda bir il altı aylıq xidmətini daim, həmişə böyük məhəbbət hissi ilə xatırlasınlar. Gələcəkdə harada yaşayacaqsa, harada xidmət edəcəksə, lazım olduqda yenə də səfərbər olub orduya gələrək sadəcə, adi insan kimi yox, hərbi hazırlıqlı şəxs kimi Azərbaycanın torpaqlarını müdafiə etsin, respublikamızın dövlət müstəqilliyini təmin etsin"** sözləri hər bir komandirin vəzifələrini çox dəqiq əks etdirir.

Komandirin səlahiyyət və məsuliyyəti onun qərarlarında və əmrlərində əksini tapır. Komandirin qərarı - döyüşdə idarəetmənin əsasını təşkil edir. Qərar yüzlərlə, minlərlə döyüşçünün səylərini, biliklərini, bacarığını və iradəsini birləşdirir. Komandirin əmri hüquqi qüvvəyə malikdir.

Komandir ona verilən hüquqlar çərçivəsində müstəqil hərəkət edir, tabeliyində olan hərbi qulluqçulardan Azərbaycan Respublikası Konstitusiyasına və qanunlarına əməl edilməsini, hərbi nizamnamələrin tələblərinin, vəzifə borclarının, verilən tapşırıq və sərəncamların dəqiq və vaxtında yerinə yetirilməsini tələb edir. O, şəxsi heyətdə yüksək mənəvi-döyüş keyfiyyətləri, Vətənə sonsuz sədaqət, hərbi xidməti vicdanla yerinə yetirmək, təşəbbüskarlıq, təmkin, fərasət və sayıqlıq, Vətənimizin düşmənlərinə qarşı tam qələbəyədək döyüşməyə həmişə hazır olmağı öyrədir, bu mübarizədə öz qüvvəsini və hətta həyatını da əsirgəməməyi tərbiyə edir.

***Komandirin əmri tabelikdə olan üçün qanundur***

Azərbaycan Silahlı Qüvvələrində xidmət ölkənin ali qanunvericilik orqanının təsdiq etdiyi qanunlarla və nizamnamələrlə müəyyənləşdirilir. Silahlı Qüvvələri digər qurumlardan fərqləndirən əsas xüsusiyyətlərdən biri də hər bir komandirin tabeliyində olanlarla münasibətlərinin xüsusi normativ hüquqi aktlarla tənzimlənməsidir.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nizamnamələri, hər bir hərbi qulluqçunun Azərbaycan Silahlı Qüvvələri sıralarına daxil olarkən içdiyi Hərbi And hərbi qulluqçulardan komandirlərə (rəislərə) danışıqsız tabe olmağı və döyüşdə onları müdafiə etməyi tələb edir.

Daxili Xidmət Nizamnaməsinin 4-cü bəndində göstərilir ki, hərbi qulluqçu komandirlərə (rəislərə) hörmət etməli, intizamın və qayda-qanunun saxlanılmasında onlara yardım göstərməli, əsgəri nəzakət və salamvermə qaydalarına ciddi riayət etməli, həmişə hərbi geyimdə təmiz və səliqəli olmalıdır.

Vətənin müdafiəsi, mənafeyi naminə komandir borcludur ki, tabeliyində olanlardan hərbi intizama və qayda-qanuna riayət edilməsini qətiyyətlə və ciddi surətdə tələb etsin, qayda-qanunun hər hansı bir şəkildə pozulmasına yol verməsin. Komandirin (rəisin) əmri qanundur. Əmr sözsüz, vaxtında və dəqiq yerinə yetirilməlidir. Orduda hərbi intizamın əhəmiyyətini çox yüksək qiymətləndirən ümummilli lider Heydər Əliyev öz çıxışlarından birində qeyd etmişdir ki, **"orduda gərək dəmir nizam-intizam olsun. Nizam-intizam hər yerdə lazımdır. Amma ordu üçün bu, əsas şərtdir. Hər bir əsgər üçün, hər bir zabit üçün əsas şərtdir".**

İntizam Nizamnaməsi komandirlərdən (rəislərdən) tabeliyində olanları hərbi intizamın bütün tələblərini sözsüz yerinə yetirmək ruhunda tərbiyə etməyi, onlardan hərbi şərəfi və hərbi borcu şüurlu inkişaf etdirib möhkəmləndirməyi, layiqliləri həvəsləndirməyi, intizamı pozanlara qarşı isə ciddi tədbirlər görməyi tələb edir.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçusu öz Vətəninin - Azərbaycan Respublikasının müdafiəçisidir. O öz Vətəninin müdafiəsi üçün şəxsi məsuliyyət daşıyır və borcludur ki: Azərbaycanın mənafeyini qorusun; onun nüfuzunun və qüdrətinin möhkəmlənməsinə səy göstərsin; Azərbaycan Respublikası Konstitusiyasına, qanunlarına və Hərbi Anda müqəddəs və sarsılmaz surətdə riayət etsin; intizamlı, vicdanlı, doğruçu və cəsarətli olsun; komandirlərə (rəislərə) danışıqsız tabe olsun və döyüşdə onları müdafiə etsin.

***Komandirin əmr və göstərişlərinə sözsüz, tez və vaxtında əməl etmək əsgərin borcudur***

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Silahlı Qüvvələrin qarşısında duran əsas vəzifəni belə müəyyənləşdirmişdir: **"Ordu quruculuğunda da böyük addımlar atılacaqdır. Artıq bu istiqamətdə çox böyük dəyişikliklər mövcuddur və bu proses davam edəcəkdir. Azərbaycanın müdafiə potensialı güclənəcəkdir. Bu, bizim strateji xəttimizdir. Azərbaycan Ordusu güclü ordudur. Biz çalışacağıq və əminəm nail olacağıq ki, bu ordu daha da güclənsin və qarşıda duran bütün məsələləri həll edə bilsin".**

Hər bir komandir ona həvalə olunmuş bölmənin (hissənin) döyüş hazırlığına və qarşıya qoyulmuş döyüş tapşırıqlarının müvəffəqiyyətli həllinə birbaşa cavabdehdir.

Müasir ümumqoşun döyüşündə əsgərin rolu qat-qat artır. O öz Vətəninin müdafiəsi üçün şəxsi məsuliyyət daşıyır. Əsgəri vəzifəni yerinə yetirərkən, o öz qüvvəsini və həyatını belə əsirgəməməyə; komandirlərə (rəislərə) sözsüz tabe olmağa və onları döyüşdə qorumağa; hissənin Döyüş Bayrağını göz bəbəyi kimi qorumağa; döyüşdə Azərbaycan Respublikası qarşısında əsgəri vəzifəsini axıradək yerinə yetirməyə borcludur. Heç nə, o cümlədən ölüm təhlükəsi belə onu əsir düşməyə məcbur etməməlidir. Hərbi And və nizamnamələr hər əsgərdən tələb edir:

- Azərbaycan Respublikası Silahlı Qüvvələrinin döyüşçüsünün vəzifə borcunu dərindən dərk etsin, Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına ciddi əməl etsin, Hərbi Andın tələblərini yerinə yetirsin; ayıq-sayıq olsun, Azərbaycanın mənafeyini vicdanla və inamla qorusun, bu işdə öz qüvvəsini, lazım gələrsə, həyatını da əsirgəməsin;
- hərbi işi vicdanla öyrənsin, komandirlərin (rəislərin) ona öyrətdiklərini möhkəm və səylə yadda saxlasın; öz vəzifələrini nümunəvi yerinə yetirsin; hərbi nizamnamələrin tələblərini möhkəm bilsin və vicdanla yerinə yetirsin;
- komandirlərin (rəislərin) əmr və göstərişlərini sözsüz, tez və vaxtında yerinə yetirsin; igid və intizamlı olsun; nalayiq hərəkətlər etməsin və yoldaşlarını da belə hərəkətlərdən çəkindirsin;
- hərbi və dövlət sirrini qorusun; komandirlərə (rəislərə) və böyüklərə hörmət etsin, hərbi nəzakət, davranış və əsgəri salamvermə qaydalarına ciddi əməl etsin;
- silahını, döyüş texnikasını və digər texnikanı yaxşı bilsin; həmişə saz, təmiz və döyüşə hazır vəziyyətdə saxlasın.

Bunlardan əlavə, əsgərin döyüşdə vəzifələri belə müəyyənləşdirilir:

- taqımın, manqanın (tankın) döyüş vəzifəsini və öz vəzifəsini bilsin; düşmən tanklarının, digər zirehli maşınlarının və tank əleyhinə vasitələrin döyüş imkanlarını, onların güclü və zəif cəhətlərini, xüsusilə də zəif yerlərini bilsin;
- istehkam qurğuları hazırlanmasının həcmini və ardıcıllığını bilsin; daim müşahidə aparsın; düşməni vaxtında aşkar etsin və onun haqqında dərhal komandirə məlumat versin;
- hücumda cəsarət və qətiyyətlə, müdafiədə dəyanət və inadla hərəkət etsin; hava düşmənini tanısın və onun təyyarələrinə, vertolyotlarına və digər hava hədəflərinə atıcı silahlardan atəş aça bilsin, onların daha zəif yerlərindən xəbəri olsun;
- döyüşdə komandiri qorusun, o yaralandıqda, yaxud həlak olduqda bölməyə komandirliyi öz üzərinə götürsün; komandirin icazəsi olmadan döyüşdə öz yerini tərk etməsin.

Döyüşdə müvəffəqiyyətin əldə olunmasında əsgərlərin öz komandirlərinə inamı amilinin böyük rolu var. Ümummilli lider Heydər Əliyev döyüşdə komandirin əvəzedilməz rolunu belə qiymətləndirmişdir: **"...Bir var ki, əlinə silah alıb vuruşan adam torpağını müdafiə etmək istəyir, şəhid olmağa hazırdır, amma silahdan istifadə etməyi, hərbi işi, hərbi peşəni bilmir, onun komandiri yoxdur, ona yol göstərən yoxdur".** 1992-1994-cü illərdə Azərbaycan Ordusunun apardığı döyüşlərin təcrübəsi göstərir ki, şəxsi heyət arasında yüksək nüfuza malik komandirlərin tabeliklərində olan bölmələr döyüş tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetirirdilər və bu zaman həmin bölmələrdə itkilər az olurdu. Ancaq, təəssüf ki, həmin illər orduda hərbi işi yaxşı bilən, əsgərlərə müasir döyüş incəliklərini öyrədən zabitlər az idi.

Silahlı Qüvvələrin peşəkar zabitlərlə komplektləşdirilməsi daim diqqət mərkəzindədir. Ümummilli lider Heydər Əliyevin dediyi **"İndi Azərbaycan Ordusu mütəşəkkil, güclü bir qüvvədir. Azərbaycan Ordusunda yaxşı, bilikli, bacarıqlı komandirlər heyəti yetişibdir"** sözləri hər bir Azərbaycan zabitinin və əsgərinin şərəfli xidmətinə, qazandığı nailiyyətlərə verilən ən yüksək qiymətdir.

**Müdafiə Nazirliyinin**
**Mənəvi-Psixoloji**
**Hazırlıq və İctimaiyyətlə**
**Əlaqələr İdarəsi**

AZƏRBAYCAN ORDUSU

# Veteranlar ordumuzun sırasındadırlar

## Azərbaycan Əfqanıstan Veteranları İctimai Birliyi mətbuat konfransı keçirib

***Əfqanıstan müharibəsi veteranlarını haqlı olaraq Azərbaycan Ordusunun ehtiyat qüvvəsi hesab edirlər. Həmişə ictimai fəallığı ilə seçilən beynəlmiləlçi döyüşçülər bu günlərdə düşmənlə təmas şəraitində döyüş növbəsi çəkən hərbi hissələrin şəxsi heyəti ilə görüşlər keçirib, hətta hərbçilərlə çiyin-çiyinə birlikdə səngərlərdə döyüş növbəsi aparıblar. Veteranların ön mövqelərə gəlişi döyüşçülərimizin böyük ruh yüksəkliyinə səbəb olub.***






Avqustun 19-da Azərbaycan Əfqanıstan Veteranları İctimai Birliyi cəbhə bölgələrinə səfərlə bağlı ölkə kütləvi informasiya vasitələrinin nümayəndələri üçün mətbuat konfransı keçirib.

Təşkilatın sədri, Qarabağ müharibəsinin iştirakçısı Məhəmməd Vəliyev öncə mətbuat nümayəndələrini salamlayıb və ictimai birliyin fəaliyyəti barədə ətraflı məlumat verib. Veteran beynəlmiləlçi döyüşçü ön xətdə xidmət aparan şəxsi heyətlə görüşlərdən aldığı təəssüratlarını bölüşüb.

Qeyd etmək lazımdır ki, Əfqanıstan müharibəsində Azərbaycandan 10 min nəfərə yaxın döyüşçü iştirak edib. Onlardan 208 nəfəri həlak olub, 7 nəfər isə itkin düşüb.

1993-cü ilin noyabrında beynəlmiləlçi döyüşçülər dövlət başçısı Heydər Əliyevin televiziya ilə çağırışına ilk qoşulanlardan olublar. Əfqanıstan müharibəsi veteranlarından 4700 nəfəri könüllü olaraq cəbhəyə yollanıb və ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşlərdə fəal iştirak edib.

İctimai birliyin sədrinin verdiyi məlumata görə, Qarabağ müharibəsində 200 nəfərədək beynəlmiləlçi döyüşçü şəhid olub, təxminən bu qədəri də yaralanıb. Erməni faşistlərinə qarşı döyüşlərdə göstərdiyi şücaətə görə onlardan 8 nəfəri Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb, 36 nəfər isə "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilib.

Azərbaycan Respublikasının Əfqanıstan veteranları bu gün də ölkəmizin ictimai həyatında fəal iştirak edirlər. Buna görə ictimai birliyin 5 nəfər üzvü Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən "Tərəqqi" medalı ilə təltif edilib.

Səhhətlərində problemlər olmasına baxmayaraq, keçmiş beynəlmiləlçi döyüşçülər daim özlərini Silahlı Qüvvələrimizin sırasında hiss edirlər. Onlar böyüməkdə olan nəslin Vətənə məhəbbət ruhunda tərbiyə edilməsi üçün öz bacarıqlarını əsirgəmirlər.

Tədbirdə nümayiş etdirilən "Əfqanıstan veteranları cəbhə bölgəsində" sənədli filmi mahiyyət etibarilə beynəlmiləlçi döyüşçülərin cəbhə bölgələrinə son səfərini və Azərbaycan əsgərlərilə maraqlı görüşlərini özündə əks etdirirdi.

Çıxış üçün söz alan Əfqanıstan müharibəsindən iki "Qırmızı Döyüş Bayrağı" ordeni ilə Vətənə qayıtmış ehtiyatda olan zabit Şakir Əhmədov, ehtiyatda olan polkovnik Cəlil Xəlilov, "Qırmızı Ulduz" ordenli Əbülfət Hüseynov, "İgidliyə görə" medalı ilə təltif olunmuş Məhiyyəddin Rüstəmov ön xətdə döyüş növbəsi aparan hərbi bölmələrdəki şəraitdən, Azərbaycan dövlətinin öz ordusunu müasir standartlar səviyyəsində təmin etməsindən, döyüş hazırlığı sahəsində qazanılan nailiyyətlərdən və döyüş postunda ayıq-sayıq dayanan Azərbaycan əsgərinin yüksək döyüş ruhundan söhbət açıblar. Ehtiyatda olan polkovnik Cəlil Xəlilovun çıxışında bir fikir daha qabarıq səslənib ki, müharibənin odundan-alovundan keçmiş veteranlar hər zaman Azərbaycan əsgərinin yanında olmalı, onlara daim mənəvi dəstək verməlidirlər. O qeyd edib ki, bu missiya bundan sonra da veteranlar tərəfindən müntəzəm davam etdiriləcək.

Tədbirin sonunda Müdafiə Nazirliyinin zabiti polkovnik Abdulla Qurbani çıxış edərək Əfqanıstan Veteranları İctimai Birliyinin nümayəndə heyətinin cəbhə bölgələrinə səfərini yüksək qiymətləndirib və Müdafiə Nazirliyinin rəhbərliyi adından beynəlmiləlçi döyüşçülərə minnətdarlığını bildirib.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar müəllifindir**

## Unutmayaq!

*__1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:__*

***Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.***
***Şərur rayonunun Kərki və Cünnüt kəndləri (17 fevral 1990) - 19 kv.km.***
***Qazax rayonunun Yuxarı Əskipara, Aşağı Əskipara, Sofulu, Bağanıs-Ayrım, Qızıl Hacılı, Barxudarlı və Xeyrimli kəndləri (1990-1992) - 75 kv.km.***
***Laçın (18 may 1992-ci il) - 1835 kv.km.***
***Kəlbəcər (3-4 aprel 1993-cü il) - 1936 kv.km.***
***Ağdam (23 iyul 1993-cü il) - 1094 kv.km.***
***Cəbrayıl (18 avqust 1993-cü il) - 1059 kv.km.***
***Füzuli (23 avqust 1993-cü il) - 1386 kv.km.***
***Qubadlı (31 avqust 1993-cü il) - 802 kv.km.***
***Zəngilan (30 oktyabr 1993-cü il) - 707 kv.km.***

**Bu torpaqları azad etmək bizim müqəddəs borcumuzdur!**

*Fiziki hazırlıq*

# İdmana diqqət böyükdür

***Şəxsi heyətin döyüş hazırlığının artırılmasında idmanın əhəmiyyəti böyükdür. Artıq Silahlı Qüvvələrimizin bütün hərbi hissələrində müasir idman şəhərciklәi istifadəyə verilib: əsgərlər daim fiziki hazırlıqlarını artırırlar.***

Cəbhə bölgəsində yerləşən bölmələrdə də şəxsi heyətin idman vərdişlərinin artırılmasına ciddi fikir verilir. Mayor Vasif Səfərov bizimlə söhbəti zamanı tabeliyində olan əsgərlərin döyüş hazırlığının artırılması üçün idmana önəm verdiyini bildirdi. Qeyd etdi ki, hər bir əsgər fiziki sağlamlığa malik olmalı və bu məqsədlə idman vərdişlərinə yiyələnməlidir. Hərbi hissələrimizin şəxsi heyəti hər gün idman şəhərciyində olur, müxtəlif idman qurğuları vasitəsilə fiziki vərdişlərini artırırlar.

Budur, baş leytenant E.Hüseynov komandiri olduğu bölmənin şəxsi heyəti ilə idman şəhərciyindədir. Zabit günün nizam qaydalarına uyğun əsgərləri idman məşğələsinə cəlb edib. Apardığım müşahidələr zamanı öyrənirəm ki, əsgərlər daha çox kross, turnik, paralel qollar və başqa idman qurğularına diqqət ayırırlar. Bu da onlara idman normativlərini düzgün yerinə yetirməyə kömək edir. Burada idman çalışmalarını yerinə yetirənlər arasında gizir Ramin Hüseynov diqqətimi cəlb edir. O, turnikdə dartınaraq dayaqda aşma hərəkətlərini tələb olunan qaydada yerinə yetirirdi. Hiss olunurdu ki, Ramində bu vərdişlər hələ yeniyetmə dövründən başlayıb. Bu barədə danışanda gizir dedi:

- Üç ildir ki, müddətdən artıq həqiqi hərbi xidmətdəyəm. Ordu sıralarında xidmət etmək, özümü gələcəkdə peşəkar hərbçi kimi görmək hələ məktəb illərindən arzum olub. Düzdür, hərbçi peşəsinin nə qədər çətin olduğunu bilirdim, buna görə də hər bir çətinliyin öhdəsindən layiqincə gələcəyimi düşünürdüm. Sonda qəti qərara gəldim ki, peşəkar hərbçi olacam. Hazırda tank heyətinin komandiriyəm. Tutduğum vəzifəmi yetərincə bilməklə yanaşı həm də fiziki hazırlığımı artırıram. Elə komandiri olduğum heyət də fiziki hazırlıq sahəsində normativləri yerinə yetirməyi bacarır.

Qısa tanışlıq nəticəsində məlum oldu ki, Ramin Şirvan şəhərində pedoqoji kolleci bitirib. Bir müddət orta məktəbdə fiziki hazırlıq və bədən tərbiyəsi fənnini tədris edib.

Əsgərlərdən Eyvaz Məmmədov, Fərahim Əşrəfov, Nadir İbrahimov və başqaları da fiziki hazırlıqda yüksək nəticələr əldə ediblər.

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**



*Düşüncələr*

# Həssaslıq vacib şərtdir

Gənc yazar Alpay Azərin "Qardaşlıq, infaq" adlı sənədli hekayəsi haqda ("Kaspi" qəzeti, 13-15 dekabr 2014-cü il) fikirlərimi bölüşmək istəyirəm. Alpayın Qarabağ müharibəsindən hekayə yazdığına əvvəlcə çox sevindim. Özüm hərbi jurnalistika sahəsində çalışdığımdan bu hekayəni həvəslə oxudum. Amma hekayənin sujet xəttinin, hadisələrin nizamsız işıqlandırılması, döyüş səhnələrinin reallıqdan uzaq təsvir edilməsi və bəzi qüsurlar ovqatımı korladı.

Təbiidir ki, istənilən hər hansı bir əsər qüsurlardan xali deyil. İş olan yerdə səhv də olar. Fikrimi təsdiq etmək üçün bu barədə kifayət qədər misallar, nümunələr gətirə bilərəm. Amma heç bir nümunə arxasınca qaçmadan hekayə barədə fikirlərimə qayıtmaq istəyirəm. "Qardaşlıq, infaq"da müəllif iki əsgər dostun xidmətindən və döyüş yolundan söz açır. Vüqar və Fikrət sovet ordusunun sıralarından qayıtdıqdan bir müddət sonra qanlı döyüşlər gedən Ağdərədə görüşürlər. Sonra Qubadlıya gedirlər, nəhayət, Cəbrayılda vuruşub yaralanırlar...

Müəllif bu kiçik hekayəsində uzaq keçmişdə qalmış tarixi bir hadisə ilə Qarabağ müharibəsində baş vermiş bir hadisə arasında paralellik yaratmağa çalışıb. Neçə əsr əvvəl baş vermiş hadisədə səhabələrdən biri əlindəki su dolu bardaqla yaralıların arasında əmisioğlu İkriməni axtarır ki, ona su içirtsin. Neçə-neçə yaralıya su verə-verə əmisi oğlunu tapır. Bardağı onun dodağına yaxınlaşdırmaq istəyəndə başqa bir yaralı inildəyib su istəyir. İkrimə nə qədər susuz olsa da, səhabədən xahiş edir ki, suyu əvvəlcə yaralı Süheylə versin. Süheyl isə suyu ağır yaralı olan başqa bir döyüşçüyə verməyi xahiş edir. Beləcə, heç kəs suyu birinci içmək istəmir.

Alpay da hadisələr arasında bu paralelliyi iki Azərbaycan əsgərinin yaralı vəziyyətdə əməliyyata qabaqca kimin getməsi üzərində qurur. Döyüşçü dostlar bu barədə mübahisə edir, bu onun, o da bunun əməliyyata birinci getməsini istəyir. İnandırıcı deyil. Çünki əməliyyata qərarı cərrah verir. Kimin birinci əməliyyat olunması xəstələrin müzakirəsinin nəticəsi ola bilməz!

Vüqar Cəbrayıldan, Fikrətsə Hacıqabul rayonunun Nəvai qəsəbəsindəndir. Qarabağ müharibəsi başlanan kimi Vüqar döyüşə yollanır. Bir müddətdən sonra Fikrət cəbhə bölgəsinə gedərək Vüqarı ağır döyüşlər gedən Ağdərədə tapır.

Alpay onların qarşılaşma səhnəsini quru və səthi yazıb. Əgər Fikrət Vüqarı Cəbrayılda axtarıb tapsaydı, bu, bir az inandırıcı olardı. Amma onu Ağdərənin meşəsində tapması heç ağlabatan deyil.

Hekayənin təhkiyyəsi belədir: dostlar görüşüb söhbət edir "ocaqda bişirilən kələpurdan" (ifadə Alpayındır - V.M.) yeyirlər. Düşmənin yaxınlığında mövqe tutmuş nəinki xüsusi təyinatlı bölüklər, başqa təyinatlı qoşun hissələri də heç vaxt ocaq qalamaz, tüstüsünü göyə verib üstündə kələpur bişirməz. Çünki ocaq yanan kimi ermənilər onların yerini müəyyənləşdirib vura bilərlər.

Fikrət Vüqarın yanında qalıb vuruşmaq istəyir. Vüqar isə buna razı olmur: " - Ay Fikrət, sən ölənlərinin goru, tərslik eləmə. Çıx get deyirəm sənə. Mən sənin yerinə (?-V.M.) vuruşaram". Qəribədir, axı Vüqar Fikrətin yerinə necə vuruşar? Eyni vaxtda iki mövqeyi necə tutar, iki silahdan necə atəş açar? Müharibə təsərrüfat işi deyil ki, dostunun da işini görəsən. Vüqar nə qədər israr etsə də, Fikrət dediyindən dönmür. Dostlar ermənilərə qarşı bir yerdə vuruşurlar.

Ağdərədə vuruşan əsgər dostları biz sonra Cəbrayılda görürük. Ağyol əməliyyatında Fikrət çiynindən yaralanır. Alpayın yazdığına görə, Fikrət xəstəxanada olanda Vüqargilin taborunu Qubadlıya aparırlar. Fikrət sağalandan sonra gedib Vüqarı Qubadlının Güləbird kəndində tapır.

Qubadlıdan sonra dostlar Cəbrayıla qayıdırlar. Rayonun Süleymanlı kəndində Xırmanlıq deyilən yerdə ermənilərin mühasirəsinə düşürlər. Alpayın təsvirində burada hər şeyin yerində olduğunu zənn edirsən. Əslində belə deyil. Bu təsvirdən belə nəticəyə gəlmək olur ki, Süleymanlı kəndini yalnız bu iki əsgər qoruyurmuş. Döyüşçü dostlar da mühasirəyə düşür, yaralanır və geri çəkilirlər, kimsə onlara köməyə gəlmir.

Təsvirdə əsgərlərimiz gözümüzə bir az qorxaq görsənir: yaralanan kimi müqavimət göstərməyi, torpağı qorumağı, düşməni məhv etməyi deyil, canlarını qurtarıb geri çəkilməyi düşünürlər.

Yaralı əsgər dostunu yola salandan sonra Vüqar da döyüş meydanında çox qalmır. Ermənilərin qumbaraatandan açdığı atəş nəticəsində hər iki ayağından yaralanır. Çox inanılmazdır, bir az Hollivud filmlərində nümayiş olunan səhnələrə bənzəyir. Qumbaraatan mərmisi adama dəyəndə parça-parça edir. Bu silahın atəşinə tuş gələn Vüqar isə yalnız ayağından yaralanır. Yaralansa da sürünə-sürünə atəş də açır. Adam hər iki ayağından yaralana, sonra da dirsəklərinin köməyi ilə sürünə və atəş aça?

Müəllif davam edərək yazır ki, Vüqar ayağından yaralanandan sonra qayalığa yaxınlaşanda saçı ağacın gövdəsinə yerləşdirilmiş piyada əleyhinə minanın siminə toxunur. Sim dartılır və xoşbəxtlikdən mina saçın dartımından açılmır. Sonra minanın simlərini saçından aralayır (? -V.M.). inandırıcı deyil. Ayaqlarından yaralanmış Vüqar sürünə-sürünə gəlib üç metr hündürlüyü olan bir qayadan aşağı hoppanır...

Məlum olur ki, Fikrət də yaralı vəziyyətdə burdadır. Həkimlər əvvəlcə Vüqarı əməliyyata götürmək istəyirlər. Amma o etiraz edib deyir ki, birinci Fikrəti əməliyyat edin. Buna Fikrət də razı olmur. İnandırıcı deyil. Hansı yaralının daha tez əməliyyat olunmasını cərrah müəyyənləşdirir...

Alpay hekayəni yazarkən bir az diqqətli olsaydı, belə qüsurlar da olmazdı. Müəllifin bu sənədli hekayəsində qibtə ediləsi nə bir əsgər, nə də komandir obrazı var. Döyüşçü dostlar nə uğurlu bir əməliyyatda iştirak edir, nə bir igidlik, şücaət göstərirlər. Əsərdə dostluq səhnələri də yetərincə işıqlandırılmayıb. Hekayədə görürük ki, bu əsgər yoldaşlar bir-birləri ilə yola getmirlər, əsər boyu elə hey mübahisə edirlər.

Qarabağ müharibəsində yazılası çox dostluq nümunələri var. Alpay Azər bu mövzuda yazmaq istəyirsə, elə müsbət nümunələrə müraciət etsəydi, yaxşı olmazdımı?

Peyğəmbərimizin çox dəyərli bir məsləhəti var: "Beşikdən qəbrədək öyrənin". Mən özüm də yeni əsərlər oxumaqdan qalmıram. Alpay, istərdim ki, yaradıcılığında bir daha belə qüsurlara yol verməyəsən, sənə gələcək işlərində uğurlar arzulayıram.

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

# Xarici hərbi xronika

### Çin dünyada üçüncüdür

Çin silah ixracına görə dünyada üçüncü ölkə sayılır. İlk yerləri isə ABŞ və Rusiya tutur. Cinin hərbi ixracı 2010-2014-cü illər ərzində 143 faiz təşkil edib. Bu haqda dünya problemlərinin öyrənilməsi üzrə Stokholm Beynəlxalq Universitetindən (SİPRL) məlumat verilib.

2009-cu ildə Çin silah ixracına görə dünyada 9-cu yeri tuturdu. Müqayisədən göründüyü kimi, ölkənin hərbi sənayesi sürətlə inkişaf etməkdədir. Hazırda ölkə dördüncü nəsildən olan qırıcılar və müasir kütləvi silahlar istehsal edir ki, onlardan hərbi münaqişələrdə istifadə edilir.

Hazırda Pekin dünyanın 35 ölkəsinə silah ixrac edir. Onun əsas alıcıları Pakistan, Banqladeş, Venesuela, Əlcəzair, İndoneziya və Nigeriyadır. Bu ölkə yüksək texnologiyalı hərbi məhsulların istehsalçısı kimi artıq şöhrət qazanıb və ABŞ-la rəqabətə başlayıb. Çində məşhur Yilonq, Vinq Loonq və ya Pierodactyl döyüş ballistik raketlərini ixrac etməyi qarşılarına məqsəd qoyublar.

### "Serıy Oryol" aparatları alınacaq

ABŞ ordusu müqavilə əsasında 133 milyon dollar məbləğində 19 ədəd pilotsuz uçan aparatlar alacaq. Bu haqda A BŞ-ın Müdafiə naziri məlumat verib. Daha sonra digər hərbi cihazların alınması da nəzərdə tutulub.

Orta yüksəkliyə malik olan "Serıy Oryol" pilotsuz uçan aparatı raketdən istifadə etməklə kəşfiyyat aparmaq, müşahidə etmək, rabitə əlaqəsi yaratmağa qadirdir. Hava məkanında 25 saata qədər qala biıər.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# İdman

### İsveçrədə "Qarabağ" zəfəri



Ağdamın "Qarabağ" komandası UEFA Avropa Liqası yarışlarının pley-off mərhələsinin ilk oyununda səfərdə İsveçrənin "Yanq Boyz" kollektivi üzərində mühüm qələbə qazanıb. AZƏRTAC xəbər verir ki, "Qarabağ"ın qələbə qolunu oyunun 67-ci dəqiqəsində Riçard Almeyda vurub.

Azərbaycan çempionatının bürünc mükafatçısı "Qəbələ" komandası Bakıda Yunanıstanın "Panatinaikos" klubunu qəbul edib. "Qəbələ" komandasının üstünlüyü ilə keçən oyunda hesab açılmayıb (0:0).

Qeyd edək ki, komandalar arasında cavab qarşılaşmaları avqustun 27-də oynanılacaq.

### Azərbaycan tarixində ilk dəfə 26-cı pillədə!




Azərbaycanı qitənin nüfuzuna görə ikinci dərəcəli klub turnirində "Qarabağ"la "Qəbələ" təmsil edir. Qəbələnin Yunanıstan "Panatinaikos"u ilə qolsuz bərabərliyi və Ağdam klubunun İsveçrədə yerli "Yanq Boyz"la qarşılaşmada 1:0 hesablı qələbə qazanması Azərbaycanın UEFA reytinqindəki xal ehtiyatını 0.375 bal zənginləşdirib.

Azerisport.com saytının məlumatına görə, klublarımızın bu uğuru Azərbaycanın UEFA-nın reytinq cədvəlində üç pillə irəliləməsinə şərait yaratdı. Belə ki, ölkəmiz nəinki Bolqarıstanla Sloveniyanı, həm də 2 klubu da qabaqlamağa nail olub.

### Akrobatlarımız beynəlxalq turnirdə qızıl və gümüş medal qazanıblar



Rusiyanın Velikiy Novqorod şəhərində akrobatika üzrə "Volkov Cup" ənənəvi beynəlxalq turnir keçirilib. AZƏRTAC bildirir ki, turnirdə Azərbaycan, Gürcüstan, Ukrayna, Belarus, Moldova və digər postsovet ölkələri ilə yanaşı, Almaniya və İsraildən də akrobatlar iştirak ediblər.

Yarışda 12-18 yaşlılar qrupunda yer alan təmsilçilərimiz Nurcan Cabbarlı və Ağasif Rəhimovdan ibarət qarışıq cütlüyümüz 3 çıxışın nəticələrinə əsasən, 84.100 xal toplayaraq qızıl medal qazanıblar.

Seymur Cəfərov - Murad Əkbərov cütlüyü isə 84.800 xalla gümüş medala sahib olub.

### "Marakana" stadionunun muzeyində Anatoli Banişevskinin forması nümayiş etdiriləcək




1965-ci ildə Braziliyanın möhtəşəm "Marakana" stadionunda oynanılan Braziliya - SSRİ matçında "Neftçi"nin yetirməsi Anatoli Banişevski başla uzaq məsafədən vurduğu qolla adını tarixə yazdırıb. Qoldan sonra A.Banişevskiyə yaxınlaşan əfsanəvi Pele onun əlini sıxaraq təbrik edib. Braziliyalıların yaddaşında "Qızıl baş" ləqəbi ilə qalan əfsanəvi futbolçu "Marakana" stadionunda qol vurmuş yeganə həmyerlimizdir.

AZƏRTAC xəbər verir ki, "Neftçi" peşəkar futbol klubunun Braziliyada işgüzar səfərdə olan icraçı direktoru Elnur Məmmədov və idman direktoru Vəli Qasımov "Marakana" muzeyinin nümayəndələri ilə görüşüblər. Əfsanəvi futbolçumuz A.Banişevskinin forması muzeyə hədiyyə edilib.

### Qara Qarayev Malaqada daha bir qol vurdu



"Malaqa" klubuna transfer olunmuş Azərbaycanın gənclərdən ibarət yığma komandasının futbolçusu Qara Qarayev İspaniya klubunun heyətində növbəti matçını keçirib. Azerisport.com xəbər verir ki, bu klubun U-19 komandasının "San Anders"lə yoxlama görüşündə futbolçumuzun vurduğu bir qol və verdiyi məhsuldar ötürmə hesabına "Malaqa" bu qarşılaşmadan qalib ayrılıb - 2:0.

Qeyd edək ki, Qara daha öncə "Real Betis"lə keçirilən yoxlama matçının ikinci hissəsində meydana çıxmış və 1 qol vurub, 1 məhsuldar ötürmə vermişdi.

**Hazırladı:**
**Əbülfət QASIMOV**

Baş gizir Şabanov Ceyhun Bəşir oğluna 2015-ci ildə verilmiş gizirin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor müavini**
polkovnik-leytenant
Arif PƏNAHOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Lalə HÜSEYNOVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 611
Nüsxə 4700